Qiymətli ədəbi-bədii abidə: ölüm son deyil!..



***Görkəmli türkoloq, məşhur dilçi-alim və tanınmış ictimai xadim, mərhum akademik Mədəd Çobanovun əziz xatirəsinə həsr olunmuş "Ölüm son deyil" poeması, tanınmış yazıçı-şair İsaxan İlyazoğlunun sözlə yaratdığı əsər - olduqca qiymətli bir ədəbi-bədii abidədir.***

Yüksək insani keyfiyyətlərə malik olan Mədəd Çobanovun elmi-pedaqoji fəaliyyətini, ictimai-siyasi həyatdakı rolunu, Azərbaycan dilinə və elminə verdiyi töhfələri ümumiləşdirən müəllif, bədii dilin imkanlarından istifadə edərək ideal insan obrazı yaradıb.

Əsərin başlanğıcında səlis və axıcı dillə Uca Yaradana, "Ey Uca Yaradan, ey Pirlər Piri", - deyə müraciət etməsi, yazılacaq yazının nə qədər məsuliyyətli olduğuna işarədir. Poemada cəmiyyət və fərdlər arasında yüksək nüfuza malik bir müəllim obrazı ilə paralel bir alim, bir ustad, bir ilahi varlığın bədii portreti yaradılıb. Şair poemada:

"Alimlər içində Mədəd adında
Peyğəmbər misallı alim yaratdın!" - deyimi ilə öz müəllimini Peyğəmbərlərin məqam dərəcəsinə qaldırır. Bu da, İslam dininin fəlsəfi baxışlarına tam uyğundur.

Əsərdə bir alim ömrünün mənalı yaşam hekayəsi məharətlə qələmə alınıb.

Əsərin baş qəhrəmanı şairin sevimli müəllimi olsa da, sujetin alt qatında bir neçə müqəddəs üçlüyün vəhdətini görürük.

Birinci üçlükdə Müəllimin ömrü, zirvəsi qarlı uca dağa, nurlu çırağa, əriyən muma bəzədilir.

Tələbələrini öz ziyası və nuru ətrafında cəm etməyi bacaran ustad müəllimini Xoca simasında görür, onun El ağsaqqalı olduğunu təsdiqləyir və eyni zamanda, Onu Müasir dövrün Dədə Qorqudu adlandırır.

"Bir insan tanıdım ömrü mənalı,
Fikri, düşüncəsi, zəkası dərin.
O Qorqud misallı el ağsaqqalı
Başında olardı, xeyrin-şərin".

İkinci müqəddəs üçlükdə isə Peyğəmbər, Dədə Qorqud və Xoca simasını özündə cəmləyən ideal insan obrazı görürük.

Gənc nəsillərə El-oba sevgisi, Vətən məhəbbəti daşıyan Türkoloq alimin daha bir özəlliyi şairin diqqət mərkəzindədir. Belə ki, şair, bu günün aktual məsələsi olan Turançıllq ideyasını hələ keçən əsrin 80-ci illərində sevimli müəlliminin necə də böyük məhəbbət və sonsuz sevgi ilə təbliğ etdiyini diqqətə çatdırır:

"Bizə həyat dərsi keçdi o insan,
İlk sözü Vətəndi, son sözü Turan!.."

- deməsi müəlliminin dərin ideya və məfkurə sahibi olduğunu bir daha təsdiqləyir.

Üçüncü müqəddəs üçlükdə, Olum, Ölüm və Əbədi həyat görürük. Hər şeyin Uca və Yaradanın əmri ilə müəyyən zaman və məkan arasında baş verdiyinə şahid oluruq.

Üç iyun 2023-cü il... Vida günü... Haqqın əmri ilə akademik Mədəd Çobanov Əbədiyyətə qovuşduğu günü müəllif çox kədərli və duyğusal hislərlə qələmə alıb. Vida gününün ağırlığı altında tabutun ağırlığını hiss edən şair: "Görəsən, nə varmış tabutdan ağır?!" - deyə özü-özünə sual edir. Bu sətir müəllimlə tələbə arasında ruhu bağlılığın olduğunu təsdiqləyir.

Həyatda Haq, Səbəb və Yaradılan olan yerdə təsadüf deyə bir şey yoxdu...

Dədə Qorqud misallı alimin də Bakının Dədə Qorqud qəbiristanlığında torpağa tapşırılması haqqın əmri deyilmi? Əsərin sonunda, o ağır günün ikinci ildönümü, Müəllim məzarının ziyarət olunması səhnəsi böyük ustalıqla təsvir olunur. Əvvəlcə qəbiristanlığa, məzara və başdaşına böyük ehtiramla Salam verən şair, sonra ruh halına keçərək yazır:

"Bura lal məkandı, qulağı sağır,
Səcdəyə göylərdən mələklər endi.
Burda hər nəsnənin zəhmi çox ağır,
Kədərdən ürəklər bölünür indi.
Məzar gül-çiçəkdi, göydən nur yağır,
Kimin kim olduğu bılinir indi!.."

Burada məkanın lal və kar olduğunu, nur yağışı yağdığını, hətta mələklərin də səcdə üçün göylərdən yerə endiyini şairin görməsi və oxuculara göstərməsi heyrətamizdir!..

Əsərdəki sonuncu müqəddəs üçlük olan Yaradan, Zaman və Məkan anlayışları ümumbəşəri fəlsəfi mahiyyət daşıyır.

Şair Ölümün son olmadığını, Həyatın isə Əbədi olduğunu sözlə təsdiqləyir. Mənalı ömrün Nura çevrilərək Əbədiyaşar olduğuna inanan şair, oxucusunu da buna inandırmağı bacarır.

Bir sözlə, bu əsər - tanınmış yazıçı-şair İsaxan İlyazoğlunun "ÖLÜM SON DEYİL!.." adlı poeması - tələbənin sevimli və unudulmaz müəllimi - mərhum akademik Mədəd Çobanovun əziz xatirəsinə sözlə yaratdığı qiymətli ədəbi-bədii abidədir.

***Zakir İSMAYILOV,***
***TDPU-nun məzunu, filoloq***

Kredo .- 2026.- 11 fevral (№06).- S.13.